بسم الله الرحمن الرحيم

TBİLİSİ-2017

**Kitabın adı:**
Qırx Hədis

**Hazırlayan:**
Hacı BƏKİROĞLU

**İç dizayn və qapaq tərtibatı:**
Elsevər ƏHMƏDOV

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

---

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

# ორმოცი ჰადისი

# Qırx Hədis

Taleh Şirinov

თალეჰ შირინოვი

TBİLİSİ-2017

# “PEYĞƏMBƏRİMİZİ SEVİRƏM, HƏDİS ƏZBƏRLƏYİRƏM”

Həmd Aləmlərin Rəbbi olan Allaha, salətu-salam Həzrət Peyğəmbərimizə (s.ə.s) olsun.

Qurani-Kərimdən sonra dinimizin ikinci qaynağı Həzrət Peyğəmbərimizin (s.ə.s) hədisləridir. Bu səbəblə Peyğəmbərimizin (s.ə.s) hədisi-şərifləri İslamı və Quranı anlamaq və yaşamaq məqsədilə hər zaman baş tacı edilərək fərqli vəsilələrlə öyrənilməyə, əzbərlənməyə çalışılmışdır.

Həzrət Peyğəmbərimizin (s.ə.s) buyurduğu: *“Ümmətimdən kim dini işlərinə dair qırx hədis əzbərləyərsə, Allah-Təala qiyamət günü onu alimlərlə birlikdə dirildər. Mən də qiyamət günündə ona həm şəfaətçi, həm də şahid olaram.”* (Təbərani, Beyhəqi, İbn Adiy, Əbu Nuaym) hədisi-şərifinə əsaslanaraq bir çox İslam alimi bu şəfaətə nail olmaq üçün qırx hədis toplamış və

insanların əzbərləmələrinə vəsilə olmağa çalışmışdır. İlk dəfə qırx hədis toplusunu İbn Mübarək (r.əleyh) hazırlamış, daha sonra da İmam Nəvəvi kimi alimlərin qırx hədis çalışması olmuşdur. Məqsəd fərqli mövzularda toplanmış olan bu hədislərin insanlar tərəfindən istifadə edilərək əzbərlənməsi və yaşayış tərzinə əks etməsi olmuşdur.

Əlinizdəki bu çalışma daha əvvəl alimlərimiz tərəfindən hazırlanmış qırx hədis məcmuələrindən seçilərək hazırlanmışdır. Buradakı məqsəd gələcəyimiz olan gənclərimizin hədisləri öyrənməsi (əzbərləməsi) və bu səpkidə milli-mənəvi dəyərləri mənimsəməsidir. Məhz buna görə də "Peyğəmbərimizi Sevirəm, Hədis Əzbərləyirəm" devizi ilə bu çalışma hazırlanmışdır.

Nailiyyətini və bərəkətini Allah-Təaladan niyaz edirik.

إِنَّمَا الْاَعْمَالُ بِالنِّيَّاتِ، وَ إِنَّمَا لِكُلِّ
امْرِئٍ مَا نَوَى...

*1. "Əməllər niyyətlərə görə dəyər qazanar. Hər kəs əməlinin qarşılığını niyyətinə görə alır..."* (Buxari, Bədi-ul-Vəhy, 1; Müslim, İmarə, 155; Əbu Davud, Talaq, 11)

مَنْ كَانَ اٰخِرَ كَلَامِهِ لَا إِلٰهَ إِلَّا
اللّٰهُ دَخَلَ الجَنَّةَ

*2. "Kimin son sözü, Lə iləhə illəllah (Allahdan başqa ilah yoxdur) olarsa, cənnətə girər".* (Əbu Davud, Cənaiz, 20)

خَيْرُكُمْ مَنْ تَعَلَّمَ الْقُرْآنَ وَعَلَّمَهُ

3. *“Sizin ən xeyirliniz Quranı öyrənən və onu başqalarına öyrədəndir”.* (Buxari, Fəzailul-Quran, 21)

أَلْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلٰى

4. *“Verən əl alan əldən daha xeyirlidir...”* (Buxari, Zəkat, 18; Müslim, Zəkat, 94-97, 106, 124)

مَا مِنْ مُسْلِمٍ يَغْرِسُ غَرْساً إِلَّا كَانَ مَا
أُكِلَ مِنْهُ لَهُ صَدَقَةً

5. *“Müsəlmanın əkdiyi ağacdan yeyilən şey onun üçün sədəqədir”.* (Buxari, Ədəb, 27; Müslim, Müsaqat, 12)

اَلْبِرُّ حُسْنُ الْخُلْقِ

*6. “Yaxşılıq, gözəl əxlaqdır”.* (Müslim, Birr, 14-15; Tirmizi, Zöhd, 52)

أَلْجَنَّةُ تَحْتَ أَقْدَامِ الْأُمَّهَاتِ

*7. “Cənnət anaların ayaqları altındadır”.* (Nəsai, Cihad, 6)

أَلدَّالُّ عَلىَ الْخَيْرِ كَفَاعِلِهِ

*8. “Xeyirə vəsilə olan, o xeyiri işləyən kimidir”.* (Tirmizi, Elm, 14)

إِنَّ اللّٰهَ جَمِيلٌ يُحِبُّ الْجَمَالَ

*9. "Şüphəsiz ki, Allah gözəldir və gözəlliyi sevər".* (Müslim, İman, I, 93; İbn Macə, Dua, 10)

لَيْسَ الشَّدِيدُ بِالصُّرَعَةِ إِنَّمَا الشَّدِيدُ الَّذِي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ

*10. "Əsil pəhləvan güləşdə rəqibini məğlub edən deyil, əsəbləşdiyi zaman əsəbinə hakim olan kimsədir".* (Buxari, Ədəb, 76; Müslim, Birr, 107-108)

مَنْ لَا يَرْحَمِ النَّاسَ لَا يَرْحَمْهُ اللّٰهُ

*11. "İnsanlara mərhəmət göstərməyənə Allah da mərhəmət etməz".* (Buxari, Tövhid, 2, Ədəb, 27; Müslim, Fəzail, 66; Tirmizi, Birr, 16)

إِتَّقِ اللّٰهَ حَيْثُمَا كُنْتَ وَأَتْبِعِ
السَّيِّئَةَ الْحَسَنَةَ تَمْحُهَا. وَخَالِقِ
النَّاسَ بِخُلُقٍ حَسَنٍ

*12. "Harada olursan ol Allaha qarşı gəlməkdən çəkin. Etdiyin pisliyin arxasından bir yaxşılıq et ki, bu onu yox etsin. İnsanlara qarşı gözəl əxlaqın gərəyinə görə davran".* (Tirmizi, Birr, 55)

رَغِمَ أَنْفُ، ثُمَّ رَغِمَ أَنْفُ، ثُمَّ رَغِمَ
أَنْفُ، مَنْ أَدْرَكَ أَبَوَيْهِ عِنْدَ الْكِبَرِ
أَحَدَهُمَا أَوْ كِلَيْهِمَا ، فَلَمْ يَدْخُلِ
الْجَنَّةَ

*13. "Ana-atasına (birinə və yaxud hər ikisinə də) yaşlanan günlərində yetişib onlara xidmət etməklə cənnətə girə bil-*

*məyənin burnu yerlərə sürtülsün (pərişan olsun, pərişan olsun, pərişan olsun)".* (Müslim, Birr, 9-10)

مَنْ كَانَ يُؤْمِنُ بِاللّٰهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيَصِلْ رَحِمَهُ

*14. "Allaha və axirət gününə inanan kəs qohumlarını ziyarət etsin (yaxud yaxşılıq etsin)".* (Buxari, Ədəb, 85; Müslim, İman, 74-75)

مَنْ كَانَ يُؤْمِنُ بِاللّٰهِ وَالْيَوْمِ الْاٰخِرِ فَلْيُحْسِنْ اِلٰى جَارِهِ

*15. "Allaha və axirət gününə inanan kəs qonşusuna yaxşılıq etsin".* (Müslim, İman, 77)

اَلْمُسْلِمُ مَنْ سَلِمَ الْمسْلِمُونَ مِنْ
لِسَانِهِ وَ يَدِهِ

*16. "Həqiqi müsəlman, dilindən və əlindən digər müsəlmanların zərər görmədiyi kimsədir".* (Buxari, İman, 4; Müslim, İman, 64; Əbu Davud, Cihad, 2; Nəsai, İman, 9)

مَنْ كَانَ يُؤْمِنُ بِاللّٰهِ وَالْيَوْمِ الْاٰخِرِ
فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَسْكُتْ

*17. "Allaha və axirət gününə inanan kəs ya faydalı söz danışsın və ya sussun!"* (Müslim, İman 77)

أَلْحَيَاءُ شُعْبَةٌ مِنَ الْإِيْمَانِ

*18. "Həya imandan bir parçadır".* (Buxari, İman, 3; Müslim, İman, 57)

إِنَّ اللّٰهَ لَا يُحِبُّ الْفُحْشَ وَ لَا التَّفَحُّشَ

*19. "Allah çirkin görünüşü və pis sözü sevməz".* (Əbu Davud, Libas, 25; Əhməd b. Hənbəl, Müsnəd, IV, 179-180)

كَفٰي بِالْمَرْءِ كَذِباً أَنْ يُحَدِّثَ بِكُلِّ مَا سَمِعَ

*20. "Hər eşitdiyini danışmaq insana yalan olaraq kifayət edər".* (Müslim, Müqəddimə, 5)

لَيْسَ مِنَّا مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا
وَيَعْرِفْ حَقَّ كَبِيرِنَا

*21. "Kiçiklərimizə mərhəmət etməyən, böyüklərimizin haqqını bilməyən (hörmət göstərməyən) bizdən deyildir".* (Əbu Davud, Ədəb, 66; Tirmizi, Birr, 15)

اَلطُّهُورُ شَطْرُ الْإِيمَانِ

*22. "Təmizlik imanın yarısıdır".* (Müslim, Təharət, 1; Tirmizi, Dəavət, 86)

لَيْسَ الْغِنٰى عَنْ كَثْرَةِ الْعَرَضِ وَلٰكِنَّ
الْغِنٰى غِنىَ النَّفْسِ

*23. "Həqiqi zənginlik, mal çoxluğu deyil, könül toxluğudur".* (Buxari, Riqaq, 15; Müslim, Zəkat, 130)

إِنَّ اللّٰهَ لَا يَنْظُرُ إِلٰى صُوَرِكُمْ
وَأَمْوَالِكُمْ وَلٰكِنْ يَنْظُرُ إِلٰى قُلُوبِكُمْ
وَأَعْمَالِكُمْ

*24. "Allah sizin nə xarici görünüşünüzə nə də mallarınıza baxar. Ancaq sizin qəlblərinizə və əməllərinizə baxar". (*Müslim, Birr, 34; İbn Macə, Zöhd, 9; Əhməd b. Hənbəl, 3/285, 539*)*

إِنَّ الَّذِي لَيْسَ فِي جَوْفِهِ شَيْءٌ مِنَ
الْقُرْآنِ كَالْبَيْتِ الْخَرِبِ

*25. "Qəlbində Qurandan heç bir şey olmayan kəs xaraba ev kimidir".* (Tirmizi, Fəzailul-Quran, 18; Darimi, Fəzailul-Quran, 1)

مَنْ غَشَّنَا، فَلَيْسَ مِنَّا

*26. "...Bizə hiylə edərək aldadan bizdən deyildir".* (Müslim, İman, 164, Fitən 16; Əbu Davud, Sehr, 50, Tirmizi, Sehr, 72; İbn Macə, Ticarət, 36)

يَسِّرُوا وَلَا تُعَسِّرُوا وَبَشِّرُوا وَلَا تُنَفِّرُوا

*27. "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin".* (Müslim, Cihad, 1732)

لَا تَدْخُلُوا الجَنَّةَ حَتّٰى تُؤْمِنُوا وَلَا
تُؤْمِنُوا حَتّٰى تحَابُّوا، أَوَ لَا أَدُلُّكُمْ عَلٰى
شَيْءٍ إِذَا فَعَلْتُمُوهُ تَحَابَبْتُمْ؟ أَفْشُوا
السَّلَامَ بَيْنَكُمْ

*28. "Siz iman gətirmədən cənnətə girə bilməzsiniz, bir-birinizi sevmədikcə də iman gətirmiş sayılmarsınız. Sizlərə, edəcəyiniz təqdirdə bir-birinizi sevəcəyiniz bir şey söyləyimmi? Aranızda salamı yayın!"* (Müslim, İman, 93-94)

يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي وَالْمَاشِي
عَلَي الْقَاعِدِ وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ.
يُسَلِّمُ الصَّغِيرُ عَلَى الْكَبِيرِ.

*29. “Minikdə olan piyadaya, piyada oturana, sayı az olanlar çox olanlara salam versin. Yaşda kiçik olan, yaşda böyük olana salam versin”.* (Buxari, İstizan, 5-6-7;)

لَا تُمَارِ أَخَاكَ وَلَا تُمَازِحْهُ وَلَا تَعِدْهُ
مَوْعِدَةً فَتُخْلِفَهُ

*30. “Mömin qardaşınla münaqişə etmə, onun xoşuna gəlməyəcək zarafatlar etmə və ona yerinə yetirməyəcəyin vəd vermə”.* (Tirmizi, Birr, 58)

يَا غُلَامُ سَمِّ اللّٰهَ وَكُلْ بِيَمِينِكَ،
وَكُلْ مِمَّا يَلِيكَ

*31. "Ey oğul! Yeməyə başlayanda bismilləh de, sağ əlinlə və önündən ye!"* (Buxari, Ətimə, 2-3; Müslim, Əşribə, 108)

صَلُّوا عَلَيَّ فَإِنَّ صَلاَتَكُمْ
تَبْلُغُنِي حَيْثُ كُنْتُمْ

*32. "Mənə salatu-salam gətirin. Siz harada olsanız da salatu-salamınız mənə çatır".* (Əbu Davud, Mənasiq, 94; Əhməd b. Hənbəl, II, 397)

اِقْرَؤُوا الْقُرْآنَ فَإِنَّهُ يَأْتِي يَوْمَ
الْقِيَامَةِ شَفِيعاً لِأَصْحَابِهِ

*33. "Quran oxuyun. Çünki Quran, qiyamət günündə onu oxuyanlara şə-*

*faətçi olaraq gələcəkdir".* (Müslim, Müssafirun, 252)

لاَ يَدْخُلُ الجَنَّةَ مَنْ كَانَ فِي قَلْبِهِ مِثْقَالُ ذَرَّةٍ مِنْ كِبْرٍ

*34. "Qəlbində zərrə qədər kibir olan şəxs əsla cənnətə girə bilməz".* (Müslim, İman 147; Əbu Davud, ədəb, 29; Tirmizi, Birr, 61)

اَللّٰهُ فِي عَوْنِ الْعَبْدِ مَا كَانَ الْعَبْدُ فِي عَوْنِ أَخِيهِ

*35. "Mömin bəndə, din qardaşının köməyində olduğu müddət ərzində, Allah da o bəndənin köməyində olar".* (Müslim, Zikr, 38; İbn Macə, Hudud, 3)

مَا مِنْ مُسْلِمَيْنِ يَلْتَقِيَانِ فَيَتَصَافَحَانِ
إِلاَّ غُفِرَ لَهُمَا قَبْلَ أَنْ يَفْتَرِقَا

*36. "İki müsəlman qarşılaşıb əllə görüşsələr (musafaha etsələr), bir-birindən ayrılmadan əvvəl (kiçik) günahları bağışlanar".* (Əbu Davud, Ədəb, 143)

إِيَّاكُمْ وَالْحَسَدَ، فَإِنَّ الْحَسَدَ يَأْكُلُ
الْحَسَنَاتِ كَمَا تَأْكُلُ النَّارُ الْحَطَبَ

*37. "Həsəd aparmaqdan çəkinin. Çünki, atəşin odunu yediyi kimi həsəd də yaxşılıqları yox edər".* (Əbu Davud, Ədəb, 44; İbn Macə, Zöhd, 22)

أَلرَّجُلُ عَلٰى دِينِ خَلِيلِهِ فَلْيَنْظُرْ
أَحَدُكُمْ مَنْ يُخَالِلُ

*38. "İnsan, dostunun həyat tərzindən təsirlənər. Elə isə hər biriniz kiminlə dostluq etdiyinə diqqət etsin".*
(Əbu Davud, Ədəb, 19; Tirmizi, Zöhd, 45)

لَا يُؤْمِنُ أَحَدُكُمْ حَتّٰى يُحِبَّ لِأَخِيهِ
مَا يُحِبُّ لِنَفْسِهِ

*39. "Sizdən biriniz özü üçün istədiyi şeyi müsəlman qardaşı üçün də istəmədikcə kamil mömün sayılmaz".*
(Buxari, İman, 7; Müslim, İman, 71)

اَللّٰهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عِلْمٍ لَا
يَنْفَعُ، وَمِنْ قَلْبٍ لَا يَخْشَعُ، وَمِنْ

نَفْسٍ لَا تَشْبَعُ، وَمِنْ دَعْوَةٍ لَا
يُسْتَجَابُ لَهَا

*40. "Allahım! Fayda verməyən elmdən, qorxmayan ürəkdən, doymayan nəfsdən və qəbul olmayan duadan Sənə sığınıram".* (Müslim, Zikr, 73)